Sizə Cəmiyyətin Aprel ayının fəaliyyəti haqqında məlumat vermək istəyirəm.

Aprel ayının 5 də Geoloji məktəbin ilk məruzəsi keçirildi. Məruzə SOCAR – AQŞ – dən Tariyel Pirməmmədov tərəfindən ADNSU –da 2 saat ərzində Azərbaycan dilində keçirildi. Mövzunun adı Boru tutulması ( yapışması ) hallarının qabağını alması və Geoloji səbəbləri qabağını almaq üçün nəzarət tədbirləri idi. Geoloji məktəbin digər bir məruzəsi 12 – aprel tarixində baş tutdu. Məruzə Schlumberger şirkətinin Karataj kabel üzrə sahə mühəndisi Kamal Həsənov tərəfindən ingilis – dilində 2 saat müddətində davam etdi. Leksiyanın mövzusu Schlumberger şirkətinin karataj kabel texnologiyası ilə tanışlıq idi.

Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti (ANGC) bu il Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlının təklifini nəzərə alaraq tələbələr, magistrantlar, doktorantlar üçün 20- 23 aprel tarixlərində "Əla təhsil-neftçıxarmada müvəffəqiyyətin rəhnidir" adı altında Beynəlxalq konfrans keçirildi. Konfransda Bolqarıstan, Türkiyə, Rusiyanın Tümen, Ufa, Moskva Universitetlərinin nümayəndələri iştirak etdilər.

Aprelin 20-də məruzəçilərin iki dəstəsi bir günlük yeni istifadə olunan cihazlar və texnologiyalarla və alınan geoloji və geofiziki məlumatların təhlili üsulları ilə tanışlıq məqsədi Schlumberger və Halliburton şirkətlərinə getdilər.

21 aprel tarixində Beynəlxalq Konfransın rəsmi açılışı olub, konfransın giriş sözü ilə Bp şirkətinin Azərbaycandakı vitsa- prezidenti Greg Riley açmışdı.

Aprelin 23-də, Konfrans çərçivəsində geoloqlar üçün Piriküşkül ərazisi, Palçıq vulkanlarına və Kaynozoy yaşlı çıxıntılara geoloji ekskursiya təşkil olundu. Geoloji ekskursiyanı Vüqar İsmayılov (Bp-nin məsul işcisi) apardı.

Konfrans günləri zamanı geniş sosial proqram təşkil olunmuşdu.

Konfransın uğurlu keçirilməsində SOCAR, Bp, ADNSU, Schlumberger, Total, Statoil, Halliburton və eNGİe Şirkətlərin dəstəy olmasının böyük rolu olub.

Konfarns haqqında məlumat " İki sahil " qəzetində dərc olunub.